# Seyidlər kimlərdir?

**İslam tarixindən, eləcə də əsrlərdən əsrlərə ötürülərək günümüzədək gəlib çatan rəvayətlərdən məlum olur ki, seyidlər əsas etibarilə sonuncu peyğəmbər Məhəmmədin (s) soyundan olan kəslərə deyilir. Tanınmış şərqşünas və tarixçi alim, "Qurani-Kərim"in tərcuməçilərindən olan və Xilafət dövrünün, o cumlədən Azərbaycanın 7-13-cü əsrlər tarixinin ən yaxşı tədqiqatçılarından sayılan mərhum akademik Ziya Bünyadov bu sualın cavabına müəyyən mənada işıq salıb. Belə ki, onun "Dinlər, təriqətlər, məzhəblər" adlı ensiklopedik soraq kitabında "seyid" sözünün ərəbcədən tərcumədə "ağa" demək olduğu və "Məhəmməd Peyğəmbərin nəvəsi Hüseynin nəslindən olan müsəlmanların ünvanı" kimi göstərildiyini qeyd edib.**

Digər elmi mənbələrdə də "seyid" sözünün ilkin orta əsrlərdə ərəblərdə tayfa aristokratiyasının nümayəndələrinə hörmət, ehtiram əlaməti olaraq "ağa", "tayfa başçısı", "möhtərəm", cənab" mənalarında işlədilən, sonradan isə Məhəmməd Peyğəmbərin nəslindən olan müsəlmanların fəxri tituluna çevrildiyi qeyd olunur.

Azərbaycanda son 23 ildə İslam dininə ibadət edənlərin sayı surətlə artsa da, radikal təmayüllü qeyri-ənənəvi dini qurup və təşkilatlara qoşulanların da sayı təhlükə doğuracaq həddə yüksəlib. İş o yerə çatıb ki, bu gün torpağı kafirlərin işğalı altında olan, əhalisi qaçqın-köçkün düşən bir ölkənin özünü müsəlman sayan gəncinin nərəsi, eləcə də meyiti Suriyadan, İraqdan, Əfqanıstandan gəlir. İnanclı insanımız İslamda böyük önəm verilən şəhidlik üçün doğma Qarabağı deyil, öz sərhədindən çox-çox uzaq olan Suryanı, İraqı, Əfqanıstanı seçir.

1828-ci ilin Türkmənçay muqaviləsindən sonra Çar Rusiyası tərkibinə verilən Azərbaycanda və Cənubi Qafqazda yaşayan seyidlərin siyahısı tutulub. Bu haqda Tiflis və Sankt-Peterburq arxivlərində olduqca qiymətli olan seyidlər haqqında məlumatlar saxlanır.

Çox yaxşı olardı ki, Qafqaz Müsəlmanları Ruhani İdarəsi və Dİni Qurumlara iş üzrə Dövlət Komitəsi vaxtilə Azərbaycana sığınmış Peyğəmbər soyundan olanların itib-batmaması üçün hazırda Rusiya, Gürcüstan arxivlərində saxlanılan sənədlərin ölkəmizə gətirilməsini təmin etsin. Çünki bu sənədlər bir tərəfdən Azərbaycanın İslam dəyərlərinin qorunmasında və təbliğində nə kimi yer tutduğunu göstərmək üçün çox qiymətli mənbə və dəlillərdir, o biri tərəfdən də din tariximizin indiyədək ictimaiyyətə bəlli olmayan tərəflərini öyrənmək fürsətidir. Bu, həm də Azərbaycanda yaşayan seyid peyğəmbər soyuna ən qiymətli hədiyyə olardı!

**Xaləddin Cahangirov**